**Orucoğlu, Z.** Adı qəlbimizdə, ruhu zirvələrdə / Zəfər Orucoğlu // 525-ci qəzet. - 2025. - 23 oktyabr. - **№ 193**. - S. 14.

**İkinci Qarabağ müharibəsində qeyrətli Vətən övladlarının qanı və canı bahasına Azərbaycan Ordusu düşmən üzərində şanlı qələbə qazandı. Beləliklə, 30 il ərzində işğal altında qalan torpaqlarımız azad edildi, xalqımızın həsrətlə gözlədiyi xoşbəxt günlər başladı.**

Bu tarixi Zəfərdə Vətən və torpaq uğrunda canından keçən igidlərdən biri də 1995-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində dünyaya gəlmiş Vüsal İlkin oğlu Qənbərli idi. O, son damla qanına qədər döyüş meydanını tərk etmədi. Polad iradəsi və mərd sinəsi ilə düşmən gülləsinin qarşısında dayandı və "Təki Vətən yaşasın!" deyərək gözlərini əbədi yumdu.

Vüsal Qənbərlinin göstərdiyi igidlik və qorxmazlıq gənclərimiz üçün örnəyə, xalqımız üçün isə qürur mənbəyinə çevrildi. Düşmənin 23 saat 43 dəqiqəlik müqaviməti məhz belə qəhrəman oğulların fədakarlığı sayəsində puç oldu. Bu fədakarlıqla Azərbaycanın yeni tarixi yazıldı, Vüsal ölümsüzlüyə qovuşdu.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamları ilə Vüsal Qəmbərli ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi. O, xalqının qəlbində əbədi yaşayacaq şəhidlər sırasında yer aldı.

Vüsal Qənbərli cismən aramızda olmasa da, onu sevənlərin, Vətəni və milləti ürəkdən sevənlərin qəlbində daim yaşamaqdadır.

Azərbaycan xalqının iftixar mənbəyi olan şəhid Vüsal Qənbərli yeriməyə başladıqdan sonra ailəsi ilə birlikdə Qaradağ rayonuna köçmüşdü. Uşaqlıqdan qanında Vətən eşqi, el sevdası axan Vüsal, orta məktəbi bitirəndə artıq cəmiyyətdə sevilən və hörmət edilən gənclərdən biri idi. Əsgərlik çağı çatanda böyük sevgi və məsuliyyət hissi ilə ordu sıralarına qoşuldu. Füzuli istiqamətində xidmət edən Vüsal, müqəddəs bildiyi torpaqları göz bəbəyi kimi qoruyur, komandirlərin tapşırıqlarını dəqiqliklə yerinə yetirirdi. O, Vətən uğrunda döyüşəcəyinə and içmişdi və bu andına sadiq qaldı.

Ordudan tərxis olunduqdan sonra belə, düşmənin törətdiyi ədalətsizliklər Vüsalın içində bir alov kimi yanmağa davam edirdi. Qəlbində daim mübarizə ruhunu daşıyan bu igid, 27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsinə ilk qoşulan könüllülərdən biri oldu. Qorxmadan, tərəddüdsüz silaha sarılıb Vətənin müdafiəsinə qalxdı.

Müharibə başladığı andan etibarən erməni işğalçıları üçün əsl kabusa çevrilən Vüsal, döyüş meydanlarında onlara layiqli cavab verdi. Xüsusilə Qubadlı istiqamətində düşmənə vurduğu sarsıdıcı zərbələr yadda qaldı. Erməni silahlıları ağır itkilər verərək geri çəkilməyə məcbur oldular. Onun qəhrəmanlığı dillər əzbərinə çevrildi.

Təəssüf ki, bu igid oğul Xocavənd istiqamətində gedən ağır döyüşlərin birində - düşmənin hücumunu dəf edərkən qəhrəmancasına şəhid oldu. Vüsal Qənbərli 20 dekabr 2020-ci ildə doğulduğu Günəşli kəndində torpağa tapşırıldı.

Lakin Vüsalın ruhu göylərə yüksəldi, adı isə tarixə və ürəklərə həkk olundu. Onun həyat yolu - Vətənə bağlılıq, fədakarlıq və qəhrəmanlıq nümunəsidir. Vüsal Qənbərli - Azərbaycan gəncliyi üçün bir rəmz, xalqımız üçün əbədiyaşar qəhrəmandır.